Business Time
AZERBAIJAN
01/2026



МАГНИТ ДЛЯ СЕМЕЙ И ИНВЕСТОРОВ:

# КАК ДЕТСКИЙ ЦЕНТР МЕНЯЕТ ГОРОДА

# FABERLIC



*Layiq olduğunuz dəbdəbə*

**PREMİUM ƏTİRLƏR KOLLEKSİYASI:**
HƏR BİR DETALDA MÜKƏMMƏLLİK



# МАГНИТ ДЛЯ СЕМЕЙ И ИНВЕСТОРОВ: КАК ДЕТСКИЙ ЦЕНТР МЕНЯЕТ ГОРОДА



Когда заходит речь о развлечениях для детей, многие представляют себе простые игровые комнаты или парки с качелями. Но что, если такой центр может стать не просто местом для веселья, а настоящим магнитом для семьи, стимулом экономического роста и перспективным инвестиционным проектом? Ильтимас Набиев превратил эту идею в успешный бизнес в Азербайджане.

И. Набиев – экономист и предприниматель с большим опытом работы в бизнесе и международном экспорте. Постоянный член Экспортного совета премии Azerbaijan Business Award (за исключением 2024 года, когда был лауреатом). Активно участвует в отборе и мониторинге компаний, оценивает результаты и влияние на отрасль, имеет решающий голос при выборе лауреатов. Редакция журнала Business Time полностью доверяет его экспертному мнению, а его профессионализм и практический опыт делают его ключевым членом совета. Ильтимас Набиев олицетворяет собой сочетание профессионализма, опыта и независимого взгляда, благодаря чему его участие в Совете является гарантией прозрачности, объективности и высокого качества экспертной оценки.

В данном интервью мы поговорили о том, как зарождается идея детского центра, какие тренды сегодня правят индустрией, с какими вызовами сталкиваются предприниматели и что делает этот бизнес выгодным и безопасным вложением. Вы узнаете секреты успеха и вдохновляющую историю человека, который превращает детские улыбки в мощный двигатель развития целого сектора.

**– Как у Вас родилась идея создать детский развлекательный центр? Была ли она спонтанной или давно зрела в ваших мыслях?**

– Идея открыть детский развлекательный центр родилась у меня в 2013 году совершенно случайно, когда я посетил выставку в Дубае. Там я увидел игровые автоматы и заметил, как с восторгом на них реагируют дети и взрослые, и это пробудило во мне желание изучить этот бизнес. Моя техническая специализация позволила быстро понять работу оборудования и особенности его эксплуатации, что дало большое преимущество на старте. Это также помогло мне правильно выбрать поставщиков и оптимизировать процессы, чтобы центр сразу заработал эффективно.

**– Какие тренды сейчас «завоевывают» индустрию детских развлечений? Что сегодня становится особенно популярным среди детей и родителей?**

– Сегодня основная тенденция – популяризация детских центров в торговых комплексах, которые становятся настоящими магнитами для посетителей. Они не только развлекают детей, но и стимулируют поток клиентов в магазины и рестораны, повышая общую привлекательность торговых объектов. Кроме того, современные родители ищут интерактивные и образовательные развлечения, что формирует новые форматы игровых зон и тематических мероприятий. Постоянное обновление и креативность становятся важным условием успеха.

**– Чувствуете ли Вы нехватку квалифицированных специалистов для работы в детских центрах? Насколько сложно найти людей, готовых работать в данной сфере?**

– Да, в нашей стране ощущается серьезная нехватка специалистов для работы в детских центрах. В таких областях, как туризм и техническое обслуживание, подготовка специалистов активно развивается, в то время как в индустрии детских развлечений, к сожалению, отсутствуют образовательные программы для подготовки профессионалов. Поэтому обучение сотрудников проходит на практике, адаптируясь под конкретный формат центра. Такой подход позволяет формировать профессиональные навыки, необходимые для успешной работы.

**– У Вас есть собственная система обучения и подготовки кадров? Как Вы готовите сотрудников к специфике работы в детском центре?**

– Мы сталкиваемся с проблемами в подготовке кадров, так как этот бизнес в нашей стране считается новым. Обучение проводится на стартап-стадии под руководством опытного наставника. Такой подход позволяет адаптировать знания под реальные нужды бизнеса и быстро подготовить квалифицированных сотрудников. В результате формируется команда, которая понимает специфику индустрии и ожидания клиентов.

**– Какие специалисты сейчас наиболее востребованы в индустрии детских развлечений? Какие навыки и знания действительно позволяют добиваться успеха?**

– В данной сфере востребованы менеджеры, бухгалтеры, маркетологи, технические специалисты и операторы. Но ключевым для успеха является наличие опытного руководителя проекта, который способен управлять центром и обеспечивать возврат инвестиций. Кроме того, важны навыки поддержки актуальности центра, разработки новых программ и организации мероприятий для удержания интереса посетителей. Без этого бизнес рискует потерять конкурентоспособность и поток клиентов.

**– Что определяет доходность детского центра? Как наличие таких зон влияет на поток посетителей в торговых центрах и жилых районах?**

– Доходность во многом зависит от тщательно проведенного анализа данных и составленного до открытия бизнес-плана. Если анализ выполнен точно, финансовый



В таких областях, как туризм и техническое обслуживание, подготовка специалистов активно развивается, в то время как в индустрии детских развлечений, к сожалению, отсутствуют образовательные программы для подготовки профессионалов.

риск минимален, а доходность стабильна. Детский центр становится важным элементом торгового центра, который управляет клиентским потоком и повышает привлекательность всей территории. Наличие таких зон также влияет на выбор родителей, куда идти с детьми, и на решение о покупке или аренде жилья в жилых комплексах.

**– Можно ли сказать, что детские центры влияют на экономический рост? Как они помогают развивать сопутствующие сферы?**

– Мероприятия и оборудование в центрах способствуют интеллектуальному и физическому развитию детей. Хотя я еще не проводил специального исследования их влияния на экономику, очевидно, что детские центры создают рабочие места и стимулируют потребление. Они поддерживают развитие связанных отраслей – питание и торговля, организация праздников. И тем самым косвенно влияют на экономическую активность в регионе.

**– Насколько этот бизнес привлекателен для инвестиций? Какие факторы делают его выгодным и безопасным для инвесторов?**



– Проекты детских центров требуют значительных вложений, что может вызвать сомнения у инвесторов. Но если оборудование качественное и долговечное, а бизнес-план тщательно рассчитан, инвестиции окупаются примерно за 36 месяцев. Правильное планирование позволяет минимизировать неожиданные расходы и обеспечить стабильный поток дохода. Это делает бизнес безопасным и привлекательным для долгосрочных инвестиций.

**– Какие основные расходы и риски связаны с открытием и управлением центром? Где чаще всего возникают трудности для новых проектов?**

– Основные расходы увеличиваются из-за того, что оборудование для детских центров в Азербайджане не производится, поэтому приходится учитывать высокие логистические затраты и таможенные сборы. К тому же, значительная часть рисков связана с запуском проекта – бизнес требует постоянной активности, внедрения новинок и организации мероприятий, чтобы удерживать интерес посетителей. Опытные специалисты помогают минимизировать эти риски и поддерживать стабильную работу центра. При грамотном руководстве проект быстро адаптируется к изменениям рынка и остается конкурентоспособным.

**– Можно ли считать детские центры движущей силой роста торговых центров и жилых районов?**

– Да, можно. По статистике, азербайджанские родители тратят значительную часть дохода на воспитание детей, возможно, больше, чем в любой другой стране. Поэтому детские центры действительно стимулируют активность торговых центров и повышают привлекательность жилых районов. Например, квартиры в домах, оснащенных детскими площадками, продаются быстрее и по более высокой цене, что наглядно демонстрирует влияние этих объектов на рынок недвижимости.

**– Какие факторы делают детский центр выгодным долгосрочным вложением? Почему инвесторы возвращаются к этому бизнесу снова и снова?**

– Долгий срок службы технического оборудования делает детские центры надежными для инвесторов. Оно продолжает работать многие годы, принося стабильный доход и минимизируя необходимость дополнительных расходов. Постоянный интерес детей и родителей к новым развлечениям обеспечивает устойчивый поток посетителей. Это позволяет бизнесу развиваться без частых изменений и крупных дополнительных вложений.

**– Какие районы сейчас самые перспективные для открытия новых детских центров? Где наблюдается наибольший спрос и потенциал?**

– Наиболее перспективны развивающиеся районы города, пригороды Баку и территории, где деревни постепенно превращаются в поселки. В городе Шуша можно ожидать высокий туристический спрос по концепции «Диснейленд». Эти территории обладают потенциалом для крупных развлекательных комплексов, востребованных как местным населением, так и туристами. Я уверен, что такие проекты станут реальностью, и готов приложить усилия для их реализации.

Квартиры в домах, оснащенных детскими площадками, продаются быстрее и по более высокой цене, что наглядно демонстрирует влияние этих объектов на рынок недвижимости.

**– Какие государственные программы и гранты помогают развивать этот бизнес в Азербайджане? Как предприниматели могут воспользоваться поддержкой государства?**

– В нашей стране есть множество программ поддержки бизнеса: фонды для малого и среднего предпринимательства, льготные кредиты, стартап-программы, налоговые льготы и сезонные преференции. Предприниматели могут использовать эти возможности для снижения рисков и ускоренного развития проектов. Это создает благоприятные условия для инвестиций и стимулирует открытие новых центров по всей стране.

**– Какие у Вас планы по развитию сети детских центров? Какие проекты и нововведения Вы планируете реализовать в ближайшие годы?**

– Я всегда ищу новые решения и программы развития, чтобы оставаться на шаг впереди конкурентов. Моя главная цель – ускорить развитие отрасли через подготовку специалистов и создание специализированной образовательной системы для детских центров. Это позволит обеспечивать высокое качество услуг, устойчивый рост сети и удовлетворять запросы современных детей и их родителей.


Yeni Sabah
WWW.YENİSABAH.AZ
7 ildir sizinla!
XƏBƏRİN ƏN DOĞRU ÜNVANI
Yeni Sabah
GÜNDəM

# AZERBAIJAN BUSINESS AWARD 2025

TƏŞKİLATÇI
Business Time
AZERBAIJAN

## MÜKAFATIN LAUREATLARI

| | |
|---|---|
| **Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün** | İqtisadi və ticari əlaqələrin inkişafına verdiyi töhfəyə görə |
| **Asan İnnovativ Mərkəzi** | Dövlət-özəl tərəfdaşlığında lider qurum |
| **Hatemoglu Group** | İlin şirkəti. Tikinti, təmir və layihələndirmə |
| **Hacıqabul Quşçuluq** | İlin quşçuluq şirkəti |
| **ElbaChem** | Perspektivli sənaye layihəsi |
| **Baku İnternational School** | Təhsil sahəsində əldə edilən yüksək nəticələrə görə |
| **Azərbaycan Sənaye Sığorta Şirkəti** | Müştəri məmnuniyyəti |
| **Scandens Pharmaceutical Industries LTD** | Azərbaycan əczaçılıq sənayesinin inkişafına verdiyi töhfəyə görə |
| **FAB Boya və Kimya Sənayesi** | İlin keyfiyyətli boya istehsalçısı |
| **Rəmzioğlu Paxlava** | Azərbaycan paxlavasını dünyaya tanıdan ilin brendi |
| **Eel Electric** | Elektrik avadanlığı istehsalı sahəsində əldə edilən yüksək nəticələrə görə |
| **UHY Azerbaijan** | İlin audit və konsaltinq şirkəti |
| **TAC MMC** | Xalq markası |
| **Highginland** | Alkoqollu içkilərin istehsalı sahəsində ilin brendi |
| **İydə Parfum** | İlin parfümeriya brendi |
| **TV1 Media** | Dinamik inkişaf |
| **Radio TMB 100.5 FM** | İlin radiosu |
| **Sharaf Media** | İlin kreativ agentliyi |
| **VS Energy Service** | Elektrik təchizatı işləri, elektrik qurğuların istehsalı və quraşdırılması sahəsində əldə etdiyi yüksək nəticələrə görə |

## PARTNYOR

# FABERLIC

## DOST ŞİRKƏTLƏR

MOLDING · A&Co · GABALA WINERY since 2005 · KHATT · RV BEST · ALMOND · VIA ad lucem · BIZON · MIRI TAGHIYEV miri ESTD 1996 BAKU TAILOR


Ежемесячный деловой журнал
01/2026 (Февраль)

**Редактор**
Кямаля Рагимова

**Выпускающий редактор**
Джамиля Аллахвердиева

**Дизайнер**
София Сеидзаде

**Генеральный директор**
Мамед Гаджиев

**Главный советник директора**
Чингиз Искендеров

**Директор департамента рекламы**
Исмаил Агаев

**Контакты:**
Тел.: (+994 55) 200 66 62

**www.businesstime.media**


YORĞUNLUĞU
ALT ÜST
ET!
BIZON
ICE COFFEE
CAPPUCCINO
BIZON
ICE COFFEE
LATTE
BIZON



AZERBAIJAN BUSINESS AWARD

*İqtisadi və ticari əlaqələrin inkişafına verdiyi töhfəyə görə*

**BİROL AKGÜN**
Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri

# AZƏRBAYCAN – TÜRKİYƏ İQTİSADİ TƏRƏFDAŞLIĞI: STRATEJİ BAXIŞ VƏ YENİ İMKANLAR

Business Time Azerbaijan jurnalının Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün ilə müsahibəsi – “Azerbaijan Business Award” mükafatının “İqtisadi və ticari əlaqələrin inkişafına verdiyi töhfəyə görə” nominasiyası üzrə laureatı ilə Azərbaycan–Türkiyə iqtisadi və ticari əlaqələrinin inkişafı barədə ətraflı söhbət.

**– 2025-ci ildə investisiyaların və ticarət axınlarının artması fonunda Türkiyə və Azərbaycan arasında mövcud iqtisadi əməkdaşlıq səviyyəsini necə qiymətləndirirsiniz?**

– Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın səviyyəsi, bütün digər sahələrdə olduğu kimi, son dərəcə müsbətdir və durmadan güclənir. Ölkələrimiz arasında təxminən 10 il əvvəl 2,5 milyard dollar olan ticarət dövriyyəsi bugün üç dəfə artmışdır. Qarşılıqlı investisiyalar baxımından da oxşar mənzərədən bəhs edilə bilər. Türkiyənin Azərbaycana investisiyaları təxminən 18 milyard dollara, Azərbaycanın Türkiyəyə investisiyaları isə 21 milyard dollara yaxınlaşmışdır. Bütün bu ticari və iqtisadi proseslərdə Prezidentlərimiz cənab Rəcəb Tayyib Ərdoğan və cənab İlham Əliyevin siyasi vizyonları həlledici rol oynayır.

Təbii ki, ölkələrimiz arasında müstəsna dostluq və qardaşlıq münasibətlərinə uyğun olaraq, daha yüksək səviyyələrə çatmağı hədəfləyirik. Orta müddətli hədəfimiz cənab Prezidentlərimiz tərəfindən müəyyən edilmiş 15 milyard dollarlıq səviyyəyə çatmaqdır. Əslində, bütün bu hədəflərin arxasında qardaş cəmiyyətlərimizi daha firavan gələcəyə doğru aparmaq idealı dayanır. Onu da qeyd etmək lazımdır ki, Türkiyə-Azərbaycan əməkdaşlığının gücləndirilməsi regional sülhün, sabitliyin və rifahın ən böyük təminatlarından biri olacaqdır.

Biz bu vizyonu işlərimizin mərkəzinə qoymuşuq və iki dövlət olaraq ölkələrimiz arasında ticarət və iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün ən əlverişli şərait yaratmağa çalışırıq. Bunu edərkən, qlobal və regional prosesləri dəqiq qiymətləndirməyi, bunlara uyğun siyasətləri müəyyən etməyi və iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan biznes icmalarımızın ehtiyaclarına və prioritetlərinə uyğun olaraq ticarət və investisiyaları asanlaşdıran infrastruktur qurmağı əsas vəzifəmiz hesab edirik.

**– Hazırda Azərbaycanda hansı sahələr türk investorları üçün daha cəlbedicidir və bunun səbəbi nədir?**

– Əvvəla, bildirmək istəyirəm ki, bugün Azərbaycanda sayı 5000-ə yaxınlaşan türk şirkətləri enerjidən infrastruktura, kənd təsərrüfatından sənayeyə, səhiyyədən turizmə qədər iqtisadi fəaliyyətin demək olar ki, hər sahəsində dəyər yaratmağa davam edirlər. Xüsusilə, enerji, nəqliyyat və tikinti kimi bəzi ənənəvi sektorlar bugünə qədər iqtisadi münasibətlərimizin sütunlarını təşkil etmişdir. Bu sektorların öz əhəmiyyətini qoruyub saxladığı, hətta bəzi hallarda artırdığı bir vaxtda inkişaf edən qlobal dinamika rəqəmsal texnologiyalar, süni intellekt, kosmos, informasiya texnologiyaları və maliyyə texnologiyaları kimi digər sahələri ön plana çıxarmışdır. Türkiyə və Azərbaycan həm iqtisadi, həm də strateji baxımdan vacib olan bu sahələri gələcək planlarına daxil edir. Buna görə də, hər iki tərəfin sahibkarlarını və investorlarını güclərini birləşdirərək bu sahələrdə effektivliklərini artırmağa təşviq edirik.

Eynilə, Azərbaycanın iqtisadi şaxələndirmə səyləri kontekstində diqqət çəkən bərpa olunan enerji, kənd təsərrüfatı texnologiyaları, istehsal sənayesi və turizm kimi sektorlar türk investorları üçün cəlbedici imkanlar yaradır. Bundan əlavə, qeyd etmək lazımdır ki, Azərbaycan hökuməti tərəfindən təklif olunan Azad İqtisadi Zonalar və Sənaye Parkları kimi infrastruktur obyektləri və investisiya təşviqləri, eləcə də Azərbaycanın logistika üstünlükləri və üçüncü

ölkələrlə mövcud sərbəst ticarət mexanizmləri də investorlarımızın bu bölgəyə gedib daha çox maraq göstərməsinə töhfə verir.

**– Qarabağ regionunun uzunmüddətli iqtisadi inkişafında, o cümlədən yeni nəqliyyat və logistika mərkəzlərinin yaradılmasında Türkiyə öz rolunu necə görür?**

– Türkiyə şirkətləri Qarabağ bölgəsinin inkişafında fəal rol oynayır və biz bundan çox məmnunuq. Şirkətlərimiz artıq Qarabağı davamlı iqtisadi mərkəzə çevirmək məqsədinə töhfə verirlər və ümumi dəyəri 5 milyard dollar olan təxminən 50 layihə, o cümlədən hər cür infrastruktur, mənzil və sosial obyektlərin tikintisi həyata keçirilir. İnanıram ki, bu sahədə investisiyalar və əməkdaşlıqlar qarşıdakı dövrdə də artmağa davam edəcək. Bundan əlavə, bölgənin ehtiyac duyduğu ixtisaslı işçi qüvvəsini yetişdirmək üçün Türkiyənin aparıcı universitetləri xüsusilə səhiyyə və mühəndislik sahələrində xüsusi layihələr vasitəsilə Qarabağ Universitetinə dəstək verirlər.

Hamımızın bildiyi kimi, nəqliyyat sahəsində Zəngəzur Dəhlizi layihəsi daha çox diqqət cəlb edir. Çindən Avropaya uzanan Orta Dəhlizdə cəlbedici alternativ olacaq bu marşrut, Azərbaycanın materik hissəsini Naxçıvanla, Türkiyəni Azərbaycanla və türk dövlətlərini bir-biri ilə birləşdirəcək, bu, həmçinin Cənubi Qafqazın geosiyasətində və Avrasiya ilə əlaqəsində transformativ təsir yaradacaq.

Buna görə də, Türkiyə olaraq, biz bu layihəni çox vacib hesab edirik və onun həyata keçirilməsi üçün Azərbaycanla əlaqələndirilmiş addımlarımızı davam etdiririk. Bünövrəsini 2025-ci ilin avqust ayında qoyduğumuz Qars-İğdır-Dilicu dəmir yolu xətti bunun ən bariz nümunələrindən biridir. Naxçıvan, Ermənistan ərazisindən keçən, başqa adı ilə “Tramp Yolu” və Qarabağ bölgəsində tikintisi tamamlanacaq avtomobil və dəmir yolu xətləri, enerji və kommunikasiya infrastrukturu ilə birlikdə bölgədə hərtərəfli inkişafa və davamlı sülhə dəstək verəcək inteqrasiya olunmuş bir struktura çeviriləcək.

**– Qlobal enerji və iqtisadi dəyişikliklər fonunda əməkdaşlığın ənənəvi sahələrdən başqa “yaşıl” enerji, rəqəmsal iqtisadiyyat və aqrotexnologiyalar istiqamətində genişləndirilməsi nəzərdən keçirilirmi?**



– Qlobal dəyişiklikləri və prosesləri nəzərə alan iqtisadi şaxələndirmə siyasəti, Türkiyə və Azərbaycanın davamlı inkişafa yönəlmiş ortaq vizyonunun ən vacib aspektlərindəndir. Bərpa olunan enerji sahəsində ölkələrimiz həm istehsal, həm də ötürmə məqsədli bir çox birgə layihələr hazırlayıblar və onların əhatə dairəsi daim genişlənir. Xüsusilə, Azərbaycanın mərkəzdə olduğu, Orta Asiya və Cənubi Qafqazı Türkiyə vasitəsilə Avropaya birləşdirən Yaşıl Enerji Dəhlizi layihəsi kimi strateji təşəbbüslər böyük potensiala malikdir.

Rəqəmsal iqtisadiyyat və kənd təsərrüfatı texnologiyaları da Azərbaycanla əməkdaşlığımızda getdikcə daha çox əhəmiyyət kəsb edən sahələrdir. Nəhayət, 22 dekabr 2025-ci il tarixində Bakıda keçirilən Türkiyə-Azərbaycan Birgə İqtisadi Komissiyasının iclasında qəbul etdiyimiz 110 maddəlik Fəaliyyət Planında “Sənaye 4.0 Hazırlıq Proqramı” çərçivəsində texnoloji yetkinliyin qiymətləndirilməsi və rəqəmsal transfor-





masiya üzrə yol xəritələrinin hazırlanması barədə razılığımızı rəsmiləşdirdik. Xüsusilə rəqəmsallaşma sənayedən kənarda nəqliyyat, mədənçilik, maliyyə və hətta səhiyyə kimi bir çox sektoru dəstəkləyən bir vasitə kimi qəbul edilməlidir. Eyni şey kənd təsərrüfatı üçün də keçərlidir. Rəqəmsal texnologiyalar bizə planlaşdırma, istehsal və marketinq mərhələlərində geniş imkanlar təqdim edir. Azərbaycanla kənd təsərrüfatı sahəsində yüksək səviyyədə olan əməkdaşlığımızı bu yeni imkanları da əhatə edəcək şəkildə inkişaf etdiririk. Bu məsələdə xüsusilə bilik və təcrübə mübadiləsinə, texnologiya transferinə əsaslanan əməkdaşlığın böyük fayda verməsinə inanırıq və birgə layihələrimizin sayını bu istiqamətdə artırmağa çalışırıq.

**– Ölkələr arasında kiçik və orta biznesin rolunu necə qiymətləndirirsiniz – birgə müəssisələrin sayı artırmı və dövlət tərəfindən hansı dəstək göstərilir?**

– Məlum olduğu kimi, Kiçik və Orta Müəssisələr (KOBİ) iqtisadi inkişafın inklüzivliyində, başqa sözlə, cəmiyyətin bütün təbəqələrinə rifahın yayılmasında və regionlar arasında inkişaf fərqlərinin minimuma endirilməsində mühüm rol oynayır. KOBİ-lər Türkiyə-Azərbaycan iqtisadi münasibətləri kontekstində də mühüm yer tutur. Bundan əvvəl qeyd etdiyim kimi, Azərbaycanda fəaliyyət göstərən təxminən 5000 türk şirkətinin əhəmiyyətli bir hissəsi bu kateqoriyaya aiddir. Buna görə də, KOBİ-ləri dəstəkləmək və birgə müəssisələrin sayını artırmaq Azərbaycanla ortaq hədəfimizdir.

Bu çərçivədə, 2022-ci ildə Türkiyə Respublikasının Kiçik və Orta Müəssisələrin İnkişafı və Dəstəklənməsi İdarəsi (KOSGEB) ilə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) arasında Əməkdaşlıq Protokolu imzalanmışdır. Bu razılaşmaya əsasən KOBİ-lərin maliyyələşdirməyə çıxışının genişləndirilməsi hədəflənmişdir. Hər iki qurum həmçinin sahibkarlara investisiya təşviqləri, məsləhət xidmətləri və strateji tərəfdaşlıq imkanları kimi bir sıra sahələrdə dəstək təqdim edir. Potensialın artırılması, ən yaxşı tətbiqetmə nümunələrinin paylaşılması və KOBİ-lər üçün birgə sənaye-təlim mərkəzlərinin yaradılması kimi məsələlər də bu sahədəki əməkdaşlığımızın gündəliyindədir. Onu da əlavə etmək istərdim ki, KOSGEB "Xarici Bazara Dəstək Proqramı" vasitəsilə şirkətlərimizin xarici əməliyyatlarına 70%-ə qədər geri qaytarılmayan maliyyələşdirmə imkanları ilə töhfə verir.

Digər tərəfdən, 2025-ci ildə Ticarət Nazirliyimiz tərəfindən KOBİ-lər başda olmaqla, ixracatçılarımıza sərgi, bazar araşdırması, icarə kimi müxtəlif sahələrdə mal ixracı üçün 15,1 milyard TL, xidmət ixracı üçün 5,2 milyard TL ödəniş edilmişdir. İxrac kreditləri çərçivəsində isə Eximbank vasitəsilə 53 milyard ABŞ dolları ixrac maliyyələşdirməsi və sığorta dəstəyinə nail olunmuş, İhracı Geliştirme A.Ş. vasitəsilə ixracatçılarımıza 178,5 milyard TL zəmanət verilmişdir. Azərbaycan dəstək proqramlarımızda prioritet ölkədir və dəstək məbləğlərinə 10%-dən 20%-ə qədər əlavələr edilir.

**– Yaxın illərdə Türkiyə şirkətləri tərəfindən Azərbaycanda hansı yeni layihələr və təşəbbüslərin həyata keçirilməsi planlaşdırılır?**

– Hazırda davam edən enerji, nəqliyyat, infrastruktur və bərpa olunan enerjiyə yönəlmiş layihələrin sayının qarşıdakı dövrdə daha da artacağını gözləyirik. Qeyd edilən sahələrdəki layihələr xüsusilə Qarabağ bölgəsində cəmləşir. Digər tərəfdən, şirkətlərimizin avtomobil, maşınqayırma, kimya, qida, tekstil və kənd təsərrüfatı kimi bir çox sektorda yeni biznes tərəfdaşlıqlarına və investisiyalara artan marağını müşahidə etməkdən məmnunuq. Müdafiə sənayesi, əczaçılıq və informasiya texnologiyaları/rəqəmsallaşdırma kimi strateji sektorlarda bir çox davam edən və ya planlaşdırılan təşəbbüslər mövcuddur. Türkiyə-Azərbaycan əməkdaşlığını üçüncü ölkələrə genişləndirmək məqsədilə həm dövlət, həm də özəl sektor səviyyələrində mühüm işlərimiz də mövcuddur. İnanırıq ki, bütün bu layihələrin reallaşması ölkələrimiz arasında strateji tərəfdaşlığı daha da gücləndirəcəkdir. Səfirlik olaraq, biz həmişə biznes icmamızın və sahibkarlarımızın yanındayıq. XXI əsri Türk əsrinə çevirmək üçün liderlərimizin rəhbərliyi altında birlikdə işləməyə davam edəcəyik.

**Leyla AXUNDOVA**

# Marja

Biznes və Maliyyə Xəbərləri Agentliyi



070 231 45 70, 055 206 94 90 050 309 44 14

info@marja.az www.marja.az



**VÜSAL RÜSTƏMOV**
Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin direktoru

AZERBAIJAN BUSINESS AWARD

*Dövlət-özəl tərəfdaşlığında lider qurum*

İnnovasiyalar Mərkəzi

# İnnovasiyalar Mərkəzi

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" Azərbaycanda innovasiya ekosisteminin inkişafı, startapların dəstəklənməsi, insan kapitalının gücləndirilməsi və rəqəmsal həllərin təşviqi istiqamətində sistemli fəaliyyət göstərən əsas institusional strukturlardan biridir. Mərkəz dövlət, özəl sektor, akademik mühit və gənclər arasında əməkdaşlığı davamlı ekosistem yanaşması əsasında gücləndirir.

Startap ekosisteminin inkişafı Mərkəzin əsas prioritet istiqamətlərindəndir. Bu sahədə fəaliyyət göstərən INNOLAND – İnkubasiya və Akselerasiya Mərkəzi ideyası olan komandaların real məhsul və dayanıqlı biznesə çevrilməsini hədəfləyir. Rezident startapların beynəlxalq investisiyalar cəlb etməsi, qlobal bazarlara çıxışı və uğurlu exit nümunələri INNOLAND modelinin praktiki nəticələrə fokuslandığını nümayiş etdirir.

İnsan kapitalının inkişafı istiqamətində ASAN İnnovativ İnkişaf Mərkəzi artıq 5 ildir ki, innovativ metodlarla dövlət və özəl sektor nümayəndələri üçün liderlik, yumşaq bacarıqlar, süni intellekt savadlılığı və s istiqamətlər üzrə təlim proqramları həyata keçirir. Praktiki yanaşmaya əsaslanan təlimlər əldə olunan bilik və bacarıqların real iş mühitində effektiv tətbiqini təmin edir. Süni intellekt sahəsində artan ehtiyacları nəzərə alaraq yaradılan ASAN AI Hub ideyaları, tədqiqatları və tətbiq yönümlü həlləri bir araya gətirən açıq innovasiya platformasıdır. Hub dövlət idarəçiliyi və biznes üçün süni intellektin praktik tətbiqini təşviq edərək yerli və beynəlxalq əməkdaşlıqları genişləndirir.

Gənclərin gələcəyin əmək bazarına hazırlanması məqsədilə həyata keçirilən "Gələcək üçün Bacarıqlar" layihəsi mentorluq, inkubasiya və inkişaf mərhələlərini birləşdirən kompleks model təqdim edir. Layihə gənclərin ideyadan məhsula qədər keçdiyi inkişaf yolunu dəstəkləyərək startap mədəniyyətinin formalaşmasına töhfə verir. Erkən yaşlardan innovativ və texnoloji düşüncənin inkişafını hədəfləyən Bilim Azərbaycan layihəsi isə Bakı və regionlarda on minlərlə şagirdi elm, texnologiya və tədqiqat yönümlü proqramlara cəlb edir və istedadlı uşaqlar üçün ödənişsiz və bərabər imkanlar yaradır.

Rəqəmsal dövlət xidmətləri sahəsində ASAN Viza sistemi xarici vətəndaşlar üçün sürətli, şəffaf və rahat viza xidmətləri təqdim edərək Azərbaycanın beynəlxalq açıq və əlçatan imicinin gücləndirilməsinə töhfə verir.

ASAN Ödəniş platforması isə vətəndaşlara dövlət və özəl sektora aid ödənişləri vahid məkan üzərindən həyata keçirmək imkanı yaradaraq ölkənin rəqəmsal transformasiya prosesində mühüm rol oynayır.

ASAN Radio artıq 10 ildir ki, maarifləndirici, sosial və innovasiya yönümlü məzmunla ictimaiyyətin məlumatlandırılmasına töhfə verir. ASAN TV isə innovasiya, texnologiya və dövlət xidmətləri sahəsində həyata keçirilən fəaliyyətlərin ictimaiyyətə operativ və əlçatan şəkildə çatdırılmasını təmin edir.

Ümumilikdə, "İnnovasiyalar Mərkəzi" tabeli qurumları və layihələri ilə birlikdə innovasiya, insan kapitalı və rəqəmsal xidmətlər sahəsində ölkənin daxili inkişafına və beynəlxalq rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş davamlı və çoxşaxəli fəaliyyət modeli formalaşdırır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

İnnovasiyalar Mərkəzi

# İNNOVASİYALAR ÇƏTİRİ




## Mərkəzin əsas fəaliyyət istiqamətlərinə aiddir:

- Dövlət xidmətlərində innovasiyaların və innovativ həllərin tətbiqi
- Startap ekosisteminin inkişafı
- Təlimlər və maarifləndirmə
- Süni intellekt əsaslı açıq innovasiya ekosisteminin təşviqi

Akademik Həsən Əliyev küçəsi 36., Bakı, AZ1078, Azərbaycan
+99412 4447433
www.icenter.az

# Araz Hətəmov

Şirkət rəhbəri

AZERBAIJAN BUSINESS AWARD

HATEMOĞLU construction

# HATEMOĞLU İNŞAAT

• Təmir • Tikinti • Dizayn • Layihələndirmə

Hatemoğlu Group-un 10 illik fəaliyyəti davamlı inkişaf, peşəkarlıq və sistemli yanaşma üzərində qurulmuşdur. Şirkətin qurucusu Araz Hətəmov təhsil və peşə fəaliyyəti dövründə qazandığı təcrübəni bir araya gətirərək güclü və dinamik bir memarlıq və tikinti komandası formalaşdırmışdır.Yarandığı gündən etibarən şirkət fəaliyyət sahəsini genişləndirərək memarlıq və tikinti istiqamətində kompleks xidmətlər təqdim etməyə başlamış, güclü texniki baza və peşəkar heyət hesabına müxtəlif miqyaslı layihələri uğurla həyata keçirmişdir.Bu gün Hatemoğlu Group yaşayış, ictimai və sənaye təyinatlı obyektlərin layihələndirilməsi və tikintisində fəal iştirak edir. Şirkətin fəaliyyəti paytaxtla yanaşı regionları da əhatə edir. Beynəlxalq ISO standartlarına uyğun fəaliyyəti və toplanmış təcrübəsi ilə Hatemoğlu Group gələcəyə inamla irəliləyərək ölkənin inkişafına töhfə verən layihələr həyata keçirməyə davam edir.


Bakı şəh. Nizami ray. K. Əfkari küç. 37B

+994 10 234 01 08

info@hatemoglu.az

hatemoglu_construction
hatemoglu_interyerdizayn








Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Elektron Hesablayıcı Maşınlar zavodunun inzibati binası



Material seçimində təbii teksturalar, neytral rəng palitrası və incə işıqlandırma elementləri istifadə olunaraq balanslı və zərif mühit yaradılmışdır.





Premium Bank



**Ələt Qəsəbəsində Yanacaq Doldurma Məntəqəsi**





Layihənin əsas binası yumşaq, axıcı forması ilə müasir memarlığın texnoloji və funksional tələblərinə cavab verir. Binanın mərkəzində yerləşən geniş atrium sahəsi təbii işıqlandırma və ventilyasiya ilə ekoloji yanaşmanı gücləndirir. Landşaftla harmoniyada olan yaşıl zonalar və insan axını üçün planlaşdırılmış açıq sahələr layihəni daha da cəlbedici edir.Məntəqənin Ələt Azad İqtisadi Zonasına birbaşa yaxınlığı onu logistik və sənaye fəaliyyətlərinin dəstəyi üçün ideal məkana çevirir.

Layihədə alternativ enerji mənbələrindən istifadə, məsələn günəş panelləri, yağış sularının toplanması və elektromobil şarj stansiyalarının inteqrasiyası kimi yaşıl texnologiyalar nəzərdə tutulur.Bu yanaşma layihəni həm ekoloji cəhətdən davamlı, həm də gələcək mobilite tələblərinə hazır hala gətirir.Məntəqə həm də sürücülər və sərnişinlər üçün istirahət, qida, alış-veriş sahələrini özündə birləşdirən kompleks bir xidmət məkanı olaraq planlaşdırılıb.



**Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi "SƏNAYECİHAZ" EİM**



**Azadlıq prospekti Yaşayış Kompleksi**







**Qara Qarayev prospekti Yaşayış Kompleksi**

Fasad həllində istifadə olunan şüşə və metal materiallar şəffaflıq və etibarlılıq anlayışlarını ön plana çıxarır. Günün müxtəlif saatlarında dəyişən işıqlandırma isə binaya fərqli vizual identiklik qazandıraraq şəhər siluetində seçilən bir elementə çevirir. Yaşıl elementlərin inteqrasiyası binanın sərt urban mühitlə balansını qoruyur və daha human məkana çevrilməsinə töhfə verir.





**İsmayıllı Rayonu Fərdi Yaşayış Evi**

AZERBAIJAN BUSINESS AWARD



**ŞÖHRƏT BABAŞOV**
Təsisçi

*İlin quşçuluq şirkəti*

Hacıqabul
QUŞÇULUQ ŞİRKƏTİ
1976-cı ildən



**NEMƏT BABAŞOV**
Təsisçi, Direktor

# Hacıqabul Quşçuluq Şirkəti

2026-cı il Azərbaycanın quşçuluq sənayesinin inkişafına öz adını qızıl hərflərlə yazmış "Hacıqabul Quşçuluq Şirkəti" öz fəaliyyətinin 50 illik yubileyini qeyd edir. Bu, Azərbaycanın qida sənayesi və kənd təsərrüfatı tarixi üçün həqiqətən əlamətdar bir hadisədir. "Hacıqabul Quşçuluq Şirkəti"nin 50 illik fəaliyyəti təkcə bir müəssisənin uğuru deyil, həm də ölkənin ərzaq təhlükəsizliyinə verilən böyük töhfənin göstəricisidir.

Hacıqabul Quşçuluq Şirkətinin uğuru onun təsisçisi xeyriyyəçi iş adamı Adışirin Babaşov ilə başlayır. 1976-cı ildən başlayan bu yol, bugün şirkəti regionun ən müasir və qabaqcıl quşçuluq komplekslərindən birinə çevirib. Şirkət, Hacıqabul rayonunun Ağacanlı kəndində yerləşir.

50 il – yarım əsrlik təcrübə deməkdir. Bu müddət ərzində şirkət bir çox iqtisadi çətinliklərdən keçmiş, lakin hər zaman öz keyfiyyətini qoruyub saxlamağı bacarmışdır. 2026-cı ildə qeyd olunacaq bu yubiley, Azərbaycan sahibkarlığının dayanıqlılığının simvoludur. "Hacıqabul Quşçuluq" ölkədə yumurta istehsalı üzrə ən böyük dövriyyəyə malik müəssisələrdən biri olmaqla yanaşı, həm də ixrac potensialı ilə tanınır.

Hacıqabul Quşçuluq Şirkəti Azərbaycanda yumurta istehsalı sahəsində beynəlxalq standartlara uyğun sertifikat alan ilk müəssisə kimi tarixə düşüb.

## Beynəlxalq Sertifikatlar

Şirkət Niderlandın dünyaca məşhur "KIWA" akkreditasiya təşkilatı tərəfindən ISO 9001:2015 – Keyfiyyəti İdarəetmə Sistemi və ISO 22000:2018 (HACCP) – Qida Təhlükəsizliyi İdarəetmə Sistemi sertifikatlara layiq görülüb.

Bu sertifikatlar müəssisədə istehsal olunan yumurtaların həm keyfiyyət, həm də gigiyenik baxımdan beynəlxalq tələblərə tam cavab verdiyini təsdiqləyir. Təqdim edilən məlumatlar şirkətin həm kəmiyyət (istehsal həcmi), həm də keyfiyyət (beynəlxalq standartlar) baxımından liderliyini göstərir.

Bu məlumatlar əsasında şirkətin fəaliyyətinin əsas üstünlüklərini belə qruplaşdırmaq olar:

### 1. Yüksək İstehsal Gücü

Gündəlik 2 milyon, illik isə 720 milyon ədəd yumurta istehsalı ölkənin ərzaq təhlükəsizliyinə böyük töhfədir. Bu həcm daxili tələbatın ödənilməsi ilə yanaşı, ixrac potensialının da yüksək olduğunu göstərir.

### 2. Müasir Laboratoriya və Texnoloji Təchizat

Şirkətin laboratoriya imkanları istehsalın hər bir mərhələsinə tam nəzarət etməyə imkan verir:

- NIR cihazı: Yem məhsullarının keyfiyyətini sürətli və dəqiq analiz edərək quşların rasionunun optimallaşdırılmasına kömək edir.
- ELİSA və PZR müayinələri: Quş xəstəliklərinin erkən diaqnostikası və bioloji təhlükəsizliyin ən yüksək səviyyədə qorunması üçün zəruridir.





- Çoxtərəfli analizlər: Mikrobioloji, toksikoloji və radioloji müayinələr məhsulun süfrəyə tam təhlükəsiz çatdırılmasını təmin edir.

**3. Tarixi Sertifikatlaşma: ISO 17025:2020**

AZAK tərəfindən akkreditasiya olunmuş ISO 17025 sertifikatı laboratoriyanın texniki səriştəliliyini təsdiq edir. Bu, o deməkdir ki:

- Laboratoriyanın verdiyi analiz nəticələri beynəlxalq səviyyədə tanınır.
- “Keyfiyyət təminatımızdır” – Markanı yaşadan dəyər.

## İqtisadi və Sosial Töhfələr

Şirkət regionun daxili ekosistemini canlandıran əsas hərəkətverici qüvvədir.

- Məşğulluq: 1000-ə yaxın sakin üçün sabit və daimi iş yeri.
- Aqrar İnkişaf: Regionun kənd təsərrüfatı potensialının stimullaşdırılması.
- Partnyorluq: Yerli fərdi təsərrüfatlarla strateji əməkdaşlıq və onlara dəstək.
- Korporativ Sosial Məsuliyyət (KSM): Sosial layihələr və ekoloji təşəbbüslərin icrası.

## Əsas Uğur Faktorları

- Texnologiya və Avtomatlaşdırma: Dəqiqliyi, təhlükəsizliyi və səmərəliliyi artırmaq üçün qabaqcıl çeşidləmə, qablaşdırma və ferma idarəetmə sistemlərinin tətbiqi.
- Genetika: Aparıcı yetişdiricilərlə (Lohmann kimi) tərəfdaşlıq etmək: daha yüksək yumurta sayına və daha yaxşı quş sağlamlığına nail olmaq üçün üstün genetikaya investisiya qoymaq.
- Əməliyyat Mükəmməlliyi: Yem istehsalı, xəstəliklərin qarşısını almaq və real vaxt rejimində ferma idarəetməsi üçün onlayn alınan məlumatlardan istifadə etmək.
- Bazara Uyğunlaşma: İstehlakçı trendlərinə cavab vermək üçün sərbəst otlaq, üzvi və ya spesifik yumurta məhsulları kimi premium bazarlara diqqət yetirmək.
- Davamlılıq və Etika: Heyvanların rifahına, ətraf mühitin qorunmasına və şəffaf istehsal metodlarına üstünlük vermək, istehlakçıların etibarını artırır.
- İnteqrasiya olunmuş Sistemlər: Cücələrin yumurtadan çıxarılmasından emal, qablaşdırma və paylanmaya qədər bütün təchizat zəncirinə nəzarət etmək keyfiyyəti və nəzarəti təmin edir.







## Günəş panellərindən istifadə

Ekoloji məsuliyyəti ön planda saxlayan Hacıqabul Quşçuluq Şirkəti günəş panellərinin tətbiqi, karton və yumurta kasetlərinin daxili istehsalını gücləndirməklə karbon emissiyasını və təbiətə atılan tullantıları minimuma endirir. 2022-ci ildən Sahibkarlığın İnkişafı Fondunun dəstəyi ilə fabrik ərazisində 2.4 meqavat gücündə günəş elektrik stansiyası qurulub. Şirkət enerjiyə olan tələbatını məhz burada qurulan günəş panelləri vasitəsi ilə alır. Bildiyiniz kimi günəş panellərindən istifadə ekologiyanın çirklənməsinin qarşısının alınmasında mühüm rol oynayır. Fabrik ərazisində günəş panellərindən geniş istifadə ekologiyanın qorunması, ətraf mühitin çirklənməsinin azaldılması və gələcək nəsillər üçün sağlam təbiətin saxlanılması baxımından olduqca əhəmiyyətlidir. Bu səbəbdən alternativ enerji mənbələri arasında günəş enerjisinə üstünlük verilməsi müasir dövrün əsas tələblərindən biridir.





| Prioritet Sahə | Görüləcək İşlər |
|---|---|
| **Texnoloji İnnovasiya** | İstehsalın modernləşdirilməsi və tam avtomatlaşdırılmış sistemlərin tətbiqi. |
| **Qlobal Bazar** | İxrac imkanlarının genişləndirilməsi və «Made in Azerbaijan» brendinin təşviqi. |
| **Yaşıl Enerji** | Ekoloji yönümlü istehsal və tullantısız texnologiya strategiyaları. |
| **Keyfiyyət Standartı** | İstehlakçı məmnuniyyəti üçün beynəlxalq keyfiyyət idarəetmə sistemlərinin tətbiqi. |

## Gələcəyə Baxış: Yeni Strateji Hədəflər

Hacıqabul Quşçuluq Şirkətinin yaxın gələcəkdə əsas hədəflərindən biri istehsalatda tam olaraq süni intellekt texnologiyalarından istifadə edilməsidir.

Süni intellektdən istifadə istehsalda yeni mərhələdir.

- Yemləmə prosesinin optimallaşdırılması;
- sürü sağlamlığı;
- quşçuluq fabrikində süni intellektdən istifadə əmək məhsuldarlığını artıracaq, iqtisadi səmərəliliyi yüksəldəcək və eyni zamanda daha təhlükəsiz, ekoloji cəhətdən dayanıqlı istehsalın formalaşmasına imkan yaradacaqdır.

Qafqaz regionunun aparıcı yumurta istehsalçılarından olan Hacıqabul Quşçuluq Şirkəti ilk dəfə olaraq 2025-ci ildə ABŞ-a yumurta ixracına başlamışdır. Əldə olunmuş ikitərəfli razılığa əsasən, ilk mərhələdə 720 000 ədəd yumurta bu ölkənin Georgia ştatına göndərilmişdir. Ümumilikdə isə ABŞ-a 39 987 qutu (14 395 320 ədəd) yumurta ixrac edilmişdir. Afrika qitəsi üzrə də əlamətdar bir yeniliyə imza atan Hacıqabul Quşçuluq Şirkəti Qambiya Respublikasına 4638 qutu (1 669 680 ədəd) yumurta ixrac edib. Eyni zamanda 2025-ci ildə Birləşmiş Ərəb Əmirlilərinin Dubay şəhərinə 112356 qutu (40 448 160 ədəd) yumurta ixrac edilmişdir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı dünya bazarına çıxış imkanlarını daha da genişləndirib. Bugün qeyri-neft sektorunun inkişaf etdirilməsi dövlətin əsas prioritetlərindəndir. Ölkədə hazırda neft amilindən asılılığı aradan qaldırmağa, iqtisadiyyatın neftdənkənar sahələrinin üstün inkişafının təmin olunmasına yönələn ardıcıl tədbirlər həyata keçirilir. Dövlət başçısı qeyri-neft sektorunda artım tempinin təmin olunmasını və bu istiqamətdə müasir dövrün tələblərinə cavab verən səmərəli tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır. Hazırda Hacıqabul Quşçuluq Şirkətinin fəaliyyəti yumurta məhsullarının ixrac potensialını genişləndirməkdə mühüm rol oynayır. Şirkət istehsal etdiyi məhsulları Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, İraq və Əfqanıstan bazarlarına ixrac edir. Bununla yanaşı Avropa İttifaqına yumurta ixracı ilə bağlı müvafiq işlərə başlanılmışdır. Həmçinin Körfəz ölkələri ilə ixrac müqavilələrinin imzalanması yekun mərhələdədir və yaxın günlərdə bu istiqamətlər üzrə də ixraca başlanacağı planlaşdırılır.







# 30 İLLİK ETİMAD:

## EMA TƏSİSÇİSİ ƏBDÜLHÜSEYN ABDULLAYEV İLƏ STRATEJİ BAXIŞ



Azərbaycan aqrar sektorunda 30 illik fasiləsiz fəaliyyət göstərən EMA bugün yalnız məhsul təchizatçısı deyil, sistemli aqronomik həllər təqdim edən lider qurumlardan biri kimi tanınır. Business Time jurnalına müsahibəsində şirkətin təsisçisi Əbdülhüseyn Abdullayev bu inkişaf yolunun fəlsəfəsini və gələcək baxışını bölüşür.

**– Əbdülhüseyn bəy, EMA-nın 30 illik yolunu necə xarakterizə edərdiniz?**

– 1996-cı ildən başladığımız fəaliyyət bir məqsədə söykənirdi: Azərbaycan fermerinə dünya standartlarında məhsul və bilik təqdim etmək. Zaman keçdikcə anladıq ki, kənd təsərrüfatında uğur yalnız məhsul satışı ilə ölçülmür. Uğur sistemli yanaşma, doğru aqronomik qərar və davamlı müşayiət tələb edir. Bugün EMA 30 illik təcrübə ilə bazarda etibarlı tərəfdaş kimi mövqeyini qoruyur.

**– EMA-nın bazar mövqeyi nəyə əsaslanır?**

– Biz özümüzü distribütor şirkət kimi deyil, həll platforması kimi görürük. Bitki mühafizə vasitələri, gübrələr, toxumlar, dezinfeksiya və fumigasiya xidmətləri, aqrar avadanlıqlar — bütün bu istiqamətlər vahid aqronomik strategiyanın hissəsidir. EMA fermerə parçalı yox, inteqrə edilmiş model təqdim edir.

**– "Tam təhvil" yanaşması nəyi ifadə edir?**

